**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№385/2** **05 fevral 2025-ci il**

**2026-cı il üzrə auditorlar üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) dair təlimlərin keçirilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla auditorların biliklərinin və peşəkar bacarıqlarının artırılması istiqamətində həyata keçirilən sistemli tədbirlər ölkədə göstərilən auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, peşənin nüfuzunun qorunmasına və beynəlxalq standartların tətbiqinə xidmət edir. Bu məqsədlə, Auditorlar Palatasının üzvü, sərbəst auditor Şamxal Vəli oğlu Kərimov tərəfindən təqdim edilmiş Palatanın üzvlərinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) üzrə biliklərinin və praktiki bacarıqlarının artırılmasına dair xidməti məktubu və 2026-cı ildə keçiriləcək təlimlərin tədris qrafikinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2026-cı il üzrə auditorlar üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) dair təlimlərin tədris qrafiki təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. on gün müddətində 2026-cı il üzrə auditorlar üçün MHBS-na dair keçiriləcək təlimlərin tədris qrafikinin Palatanın üzvlərinə çatdırılmasını təmin etsinlər;

2.2. cari ilin II rübündə auditorlar üçün MHBS-na dair təlimlərin tədris qrafikinə uyğun olaraq vaxtında və keyfiyyətlə keçirilməsini təmin etsinlər;

2.3. keçiriləcək təlimlərin videoqeydiyyatının aparılmasını və hər təlimdən sonra Palatanın üzvlərinə elektron qaydada çatdırılmasını təmin etsinlər.

3. Sərbəst auditor Ş.Kərimova tapşırılsın ki, auditorlar üçün MHBS-na dair təlimlərin tədrisini təsdiq edilmiş qrafikə uyğun həyata keçirsin.

4. Bu qərarın və 2026-cı il üzrə auditorlar üçün MHBS-na dair təlimlərin tədris qrafikinin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**